# "ÜRƏYİN DÖYÜNTÜSÜ, ƏFSUS, ƏBƏDİ DEYİL"*



*Həyat - bir axtarışdı*
*Ömür boyu seçirsən...*
*Yaxına, uzaqlara...*
*Baxıb, baxıb... keçirsən...*
***Mənsur Vəkilov***

Heç özüm də bilmirəm, qismən tanıdığım insan haqqında bu qeydləri dərc etdirməkdə nə dərəcədə haqlıyam. Axı, belə bir yazını üzə çıxarmaq üçün, ürəyində illərin xatiratı yatmalıdır. Mənim bu xatirə ümmanımda çox olmasa da, yadda qalan məqamlar, görüşlər var. Və şübhəsiz ki, bu məqamlar, bu görüşlər həyatımın bəzəyi - unudulmaz anlarıdı.

Hərdən yaddaşımı oyadanda və orda zərrə-zərrə toplanmış zarafatlar, təbəssümlər, atmacalar, bir zaman, bəlkə də, heç bir dəyər kəsb etməyən məqamlar ruhumu saranda içimdən bir nida qopur - "heyif ondan". Və təbii ki, belə anlarda, hərdən kirpiklərimi göz yaşları da isladır.

Yazıçılar Birliyinə, onun yanına birinci dəfə gəlməyim yadıma düşür. Elə bil, dərhal diqqət çəkən bu insan iş yerində yox, öz evində oturmuşdu, hara baxırdın kağızdı - qəzet, jurnaldı. Hətta ilk baxışda mənə elə gəldi ki, gözümü bu dünyaya açandan onu tanıyıram. Xeyirxahlıq və dərin zəkadan xəbər verən gözlərindəki incə təbəssüm, bir sözlə, onun bütün zahiri görkəmi məni ünsiyyətə sövq etsə də, ölçü-biçini nəzərə alıb özümü toparladım və Qara Qarayevin 85 illiyinə həsr etdiyim essenin əlyazmasını ona uzatdım. Soruşdu: "Sən kimsən?" "Heç kim. Küçədən keçən. Əlyazmasının altında hər şey yazılıb, lazım olarsa..." Və mən onun kabinetini tərk elədim.

Demək olar ki, evə çatmamış, daha doğrusu, mənzilin qapısına açar salanda eşitdiyim telefon zəngi məni vadar etdi ki, bir qədər də becid tərpənim.

Mən dərhal kompliment leysanına düşdüm və hiss elədim ki, bu leysandan daldalanmaq istəmirəm. Daha doğrusu, o, buna macal vermir.

---

* - *İxtisarla*

“Bura bax, sən belə yazmağı hardan öyrənmisən? Bu söz duyumu, bu üslub, forma hardandı?”

“Yəqin ki, atamdan keçib” - dedim , jurnalist Faiq Mustafayevin qızı olduğumu ona bildirdim. Bir müddət dəstəkdən səs gəlmədi - o, yəqin ki, nəyi isə ölçüb-biçir, xatırlamağa çalışırdı. Nəhayət ki, dilləndi: “Sən bunu mənə dərhal niyə söyləmədin ki? Mən onu çox yaxşı tanıyıram”. Münasibətimi dərhal bildirdim: “Nə mənası? Əgər mən yaxşı yazıramsa, “tanışlığa” nə lüzum, yox, əgər pis yazıramsa, dədəmin ruhunu nəyə səksəndirim?” “Bilirsən, əgər bu keyfiyyətləri sənə aşılaya bilibsə, demək, o, xoşbəxt insandı, xoşbəxt”.

Və o, yenə də mənim ünvanıma, bizim reallıqlarda xoş gələn xoş sözlər söyləməyə başlayanda, telefon söhbətinə bir də müdaxilə etdim: “Mənsur müəllim, bir də məni təriflәsəniz, ulduz xəstəliyinə tutula bilərəm, bir redaktor olaraq sizin tənqid etməyiniz daha müqabildir, sizin vəzifəniz tənqid etməkdir”. “Tənqid edə bilmərəm, yazı bütünlüklə xoşuma gəldi. O ki qaldı ulduz xəstəliyinə, sən o azardan qorxma. O mərəz sənin genində yoxdur”. Sözünə ara verəndən sonra bir də dilləndi: “Nə yazın varsa, gətir, hamısını dərc edəcəyik”. “Gətirərəm” dedim, amma həya elədim söyləməyə ki, sizə təqdim etdiyim əlyazması mənim ilk yazımdır və mənim nəinki yaradıcılıq portfelim, heç çap olunmamış beş sətir yazım da yoxdur.

Həm ziyalı, həm yaxşı insan - bu iki məziyyət hər deyəndə uyğun gəlmir. Yeri gəlmişkən, bunu məndən qabaq Stravinski söyləyib. O ki qaldı ziyalıların, ümumiyyətlə, digər insanlardan mənəvi cəhətdən qəlbidə durması haqqındakı söhbətlərə - onlar özlərinə vurulanda və şöhrət azarına tutulanda, hətta digər insanlardan ləyaqətsiz olurlar - əlahiddə olmaları haqqında yaranan düşüncə tərzi, nəinki insan münasibətlərini, sadəcə, bütün insanlığı axtalayır.

Mənsur öz siması ilə bu “təhlükədən” çox uzaqdı. Onda hər şey əksinə idi, mənəviyyatında xeyirxahlıq hər şeyi üstələyirdi. Sonsuz xeyirxahlıq onun qanında idi. O, nəinki xeyirxahlıq etməkdən qaçmırdı, əksinə, yaxşılıq etməyə imkan axtarırdı və tapırdı. Özü də bizim günlərdə; yalnız yaxınlar yox, hətta doğmalar arasında da münasibətlərin hərraca qoyulduğu, bazar iqtisadiyyatı ilə tənzimləndiyi bir zamanda.

Bir zaman ağlıma da gəlməzdi ki, onun haqqında nə isə yazacağam. Sadəcə, ölümdən sonra çox şeylər başqa-başqa mənalar kəsb eləyir. Bir telefon söhbətinin bir məqamı kimi. Belə məqamlar da nə qədər istəsən...

Onlardan biri:

“Çin violençelisti haqqında məqaləni oxudum... Adı nədir onun?.. Marazm...” Bu anda gülməyimi saxlaya bilmədim. Çünki dahi musiqiçinin soyadı Mənsur müəllimin yaddaşında marazm - yəni, düşgün kimi qalmışdı və burada fonetik “interpretasiya” da uyğun gəlmirdi. Mən dedim: “Marazm yox, Mənsur müəllim, siz praktik olaraq onun adını çəkdiniz, onun adı Yo-Yo-Madır. Yo-Yo-Ma” O, xeyli güldü və deyəsən, bu da ara verməyən öskürəyinə səbəb oldu. Mən bilirdim ki, bu nəfəskəsən, üzücü öskürək son zamanlar onu tez-tez tutur. Ona artıq əzab verməmək üçün mən tələsik vidalaşmaq qərarına gəldim. Amma o, öskürəkdən boğula-boğula “dəstəyi yerə qoyma” - dedi, “öz “Mumu”nu gətir qoyaq nömrəyə”. Cavab verdim: “O yazı çox iri alınıb” - dedim, “qəzetdə də bir parçası çap olunub”. Yenə sözünü axıra kimi dedi: “Mən səni tanıyıram, sənin balaca yazın olmur, hamısını gətir”.

Daha bir məqam; növbəti yazını göndərəndə isə zəng vurub dedim: “Yazını göndərirəm, Mənsur müəllim, yenə uzun çıxıb, məndə yazmaq sindromu

var, ölçüyəgəlməz dərəcədə çərənçiyəm. Nə xoşunuza gəlməsə, heyifsilənmədən kəsib atın".

Amma təəccüblü burasıdır ki, o, həmin yazıdan bir kəlmə də ixtisar etmədi. Və bu da məni ruhların doğmalığı haqqında düşünməyə, şərt, səbəb axtarmağa vadar elədi. O, yeganə redaktor idi ki, ixtisar etmirdi və mən də onun jurnalında çap olunmaq istəyirdim. Başqa redaktorlar, sanki əlimdən yanıqlı idilər - poz ki pozasan. Bəziləri də materialı qaytarırdı ki, ixtisar eləyim. İşgəncə verən xahişdi - öz yazını öz əlinlə kəsib-doğramaq kimə xoş olar, axı... Amma o, deyirdi: " Yazdığın kimi gətir, ixtisar edib korlayarsan".

Mənsur son dərəcə savadlı, ciddi, indiki insani psixofizikaya yabançı idi. Mülayimlik indi o qədər defisitdi ki, gərək gündüz də çıraqla axtarasan. Nə qədər ciddidirsə, o qədər də aydındı? Şübhəsiz, amma...

Mülayim, hay-küylü... Diskussiya tələb eləyən bir sualdı. Ölüm onu da aparacaq, o birisini də. Bəs maraqlı cəhət nədi: bu dünyada mövcud olmayanda, onların fərqi olmur. Çünki ikisinin də o dünyadan gələn səsi eynidir. Məsələn, məşhur insanlardan Napoleonla Diogen kimi. Ona görə onların adlarını çəkdim ki, yadıma birinci düşdülər.

Artıq eşitməyənləri komplimentlə duzlamağı bizdə sevirlər. Əminəm ki, Mənsur sağlığında layiq olduğu təriflərin yüzdən birini eşitməyib. Mənim dilimdən də həmçinin.

Mənsur, necə deyərlər, qatqısız, natural, həmişə gündəmdə olan bir insan idi. Daha doğrusu, varlığı kimi ruhən də azad idi, "nə olar, nə olmaz" çərçivəsini o özü müəyyənləşdirərdi və kimsəni nəzərə almazdı. Mən yalnız deyilənlərə əsasən bu nəticəyə gəlməmişəm.

Məlum olduğu kimi o, ədəbi jurnala rəhbərlik edirdi, mən isə, əsasən, musiqi aləmindən yazırdım. O, nə üçünsə bunun fərqində deyildi, amma bir dəfə qəfildən soruşdu:

-Bura bax, sən musiqi haqqında yazmaya bilərsən?

-Yox, Mənsur müəllim, musiqidən yazmaq mənim konservatoriya təhsilimlə bağlıdır, bələd olduğum sahədir. Burda xoşa gəlməyən nə var ki? Bu-mənim özümə qayıdışımdı, retsidivimdi.

-Necə deyərlər, sənin retsidivlərin mənə baha gəlir, əgər belə davam etsə, mən gərək jurnalın adını dəyişib "Muzıkalnıy Azerbaydjan" qoyam. Bilirsən, səndən sonra musiqiçilər redaksiyaya ziyarət kimi gəlirlər. Hansısa bir simfoniyanın təhlili haqqında məqalə gətirən də var. Biri də dünən gəlmişdi. Əlində də lya bemol major sonatası haqqında məqalə. Yazını geri qaytaranda dedi: "Bəs niyə Faiqqızını çap eləyirsiniz?" Mən onu başa sala bilmədim ki, Faiqqızı bu yazıları kürəsəl, bəşəri-insani səviyyədə qələmə alır. Anlamadı. İncik getdi. Bura bax, bəlkə teatrla bağlı bir şey yazasan? Ya da kino haqqında... Nə isə, özün bil, ya da musiqi haqqında yazılarına davam elə, mənim xoşuma gəlir...

Və bu sözün həqiqi mənasında mənim yazılarımı axıracan çap elədi. Ölümü ərəfəsində mənim görkəmli dirijor Rauf Abdullayevlə söhbətimi də çapa imzaladı.

Vəkilovsayağı "cızıqdançıxma" barəsində daha bir örnək; o, məxsusi olaraq mənim üçün Rusiya Federasiyası səfirliyi və "Sodrujestvo" təşkilatinin keçirdiyi "Şairanə Bakı" müsabiqəsində mənim iştirak edə bilməyim üçün nominasiya təşkil elədi; halbuki, adından da göründüyü kimi, "Şairanə Bakı" müsabiqəsində publisistikaya yer yoxdu. Sadəcə olaraq, mənim Vaqif Mustafazadə haqqında essem Mənsurun çox xoşuna gəlmişdi və o da... Bəli, onun belə gözlənilməz əməlləri də olurdu.

Mənsurun özünəməxsus sifəti vardı... Şair sifəti. Axı, sözün, sənətin nuru özünü zahirdə də biruzə verir. İzlər qoyur.

Bir dəfə mən ona telefon açdım.

-Necəsiniz, Mənsur müəllim?

-Heç bilmirəm sənə nə deyim.

-Şeirlə deyin, əlbəttə.

-Serroz, artroz, skleroz, nevroz...

Ürək deyir yenə döz

Buketdə də gül və söz...

O, "gül və söz" deyəndə nəyə işarə vurduğunu anladım və onu da anladım ki, o, nəyə görə ölümün astanasında da zarafatından qalmır.

Sözün bu yerində ədalətsizcəsinə tanınmayan, ölən kimi də unudulan, bizim müasirimiz, başqa bir dahi - istedadlı publisist, Mənsurun böyük dostu İbrahim Şükürov yada düşür. Ağıllıların ağıllısı idi. 50 yaşına yenicə adlamışdı ki, dünyasını dəyişdi. O, özünü elə bir vəziyyətə salmışdı ki, yaşamaq üçün imkanları qalmamışdı. Ona baş çəkmək istədiyimi bildirəndə isə utandığından razılıq vermədi. Sonuncu dəfə eyni təmənna ilə zəng vuranda isə dedi: "Lazım deyil, mənə baxanda qorxacaqsan. Heç bilirsən, mən nəyə bənzəyirəm? Necə deyim, hamilə tarakana". Gülüşdük. Sən demə, son anlarını yaşayırmış, səhər eşitdim ki, keçinib. Mənsur o zaman İbrahimin vəziyyətini bilirdi və necə deyərlər, iki daşın arasında kövrək yazılarla dolu şeirlər kitabını çap elətdirdi. Yadımdadır, Mənsur tələsirdi, qorxurdu ki, İbrahim kitabını görməyə. İbrahim o kitabını mənə avtoqrafla göndərən kimi zəng vurdum. Minnətdarlığımı bildirəndə isə dedi: "Sağ ol" mənə yox, Mənsura düşür. O - insandı..."

"Söyləyirlər ki, insanlıq öz keçmişindən gülə-gülə ayrılır. Yumoristlərin və satiriklərin bütün yeni əsərləri göstərir ki, bu ayrılma sonsuza qədər davam edə bilər. Çox pakizə! Bu o deməkdir ki, həyat davam edir. O, heç bir vəchlə qüssəli, acı və gülməli olmayıb". Bu sitat M.Vəkilovun, dəqiq yadımda deyil, hansısa kitaba yazdığı resenziyadan parçadı. Sona yaxınlaşdıqca hadisələr işıqla dolur.

Bir daha o azacıq xırıltılı səsi eşitməyəcəyəm: "Hə, Natul, xoş gördük!"

O, telefon " resenziyalarını" həmişə dövtələb istehza ilə yükləyirdi.

Alim Qasımov haqqında essemi oxuyandan dərhal sonra zəng vurmuşdu:

- Bilirsən, səndən yaxşı vəkil çıxarmış - mən bilmirdim ki, mənim içimdə muğama qarşı məhəbbət var. Onun diskini mənə gətir, qulaq asmaq istəyirəm".

Və ya başqa bir telefon zəngi:

- Sənin Rostropoviçini ləzzətlə oxudum, xüsusilə məşqlə bağlı hissəni. Hətta heyifsiləndim ki, mən niyə orkestrin oturduğu çuxurda deyiləm".

Bir dəfə isə belə dedi:

"Kabalyenin ustad dərsi haqqındakı yazın xoşuma gəldi. Axı, həm də biz onunla, demək olar ki, adaşıq, Dağıstan manerasıyla ona Mansurrat da demək olar".

...O, heç nəyi itirməkdən qorxmurdu... Çünki onda OLANI itirmək mümkün deyildi.

Bir dəfə mənim məqaləmə münasibətini gözlənilməz tərzdə bildirdi:

-Bura bax, sənin bu yazında elə sözlər var ki, birinci dəfədir eşidirəm, bəzilərini qeyd etmişəm özümçün. Belə sözləri heç Mayakovski də işlətməyib.

-Mən sizdən ibrət götürürəm, Mənsur müəllim, "prosverknula leqkaya poxodka". Təbiətdə belə söz yoxdu, "prosverknula"nı nəzərdə tuturam. Maya-

kovskini nə üçün yada salmağınız da mənə bəllidi - o, sizin sevimli şairinizdi.

-Sən bunu hardan bilirsən?

-Anam danışıb. Ad gününüzdə sizin ilhama gələrək onun ilkin yaradıcılığından söhbət açmağınızı, onun şeirlərini necə bəlağətlə oxumağınızı və o zaman sizin necə yaraşıqlı bir cavan olmağınızı hərdən xatırlayırdı. O axşam sizə dəvət olunanlar arasında mənim atamla anam da varmış. Anamın dediyinə görə, siz aşiq olubmuşsuz və bütün axşamı şeir oxumusuz... O zaman siz sahildə - "Russkiy les" dükanının üstündə yaşayırmışsız. Hə, bir də söyləyirdi ki, sizin son dərəcə gözəl ananız var. Sizin atanız, Fəxri müəllim isə evə gec gəlib və o, masa arxasına keçəndən sonra məclis yenidən qızışıb.

O, mənə dəxli olmayan bu "memuara" son dərəcə sevindi və doluxsunmuş halda:

-Bilirsən nə var, - dedi, - nə yazmısansa, hamısını gətir, hamısını...

"Şairanə Bakı" təntənələrinin sonunda - mükafatlandırma mərasimində çəkilmiş fotoya baxıram... O, bu şəkli sevirdi, "biz orda çox yaxşı düşmüşük" deyirdi. Bir dəfə isə zəng vurub xahiş elədi: "O fotonun elektron versiyasını mənə göndər". "Nəyinizə lazımdı?" "Sənəd üçün gərəkdi. Mən ordan kəsib götürəcəyəm..." Yadımdadır, bir neçə dəfə göndərdim, hamısında da itirdi.

Amma o portreti onun kitabının üz qabığında görəndə çox sevindim. Söhbət sonuncu kitabından gedir.

Zaman keçmişi məhv eləyir. Yaddaş xatirələrdən yalnız fraqmentlər saxlayır.

Ona sadəcə, elə-belə də zəng vurmaq olardı, nə isə məsləhət almaq üçün də.

Amma elə anlar da olurdu ki, sadəcə, acıları bölüşmək üçün ona telefon açırdım, çünki onunla məsləhətləşəndən sonra yüngülləşirdim.

Onun zəngləri isə, zarafatla zəngindi. Soruşurdu: "gül kimi oturmuşdu" cümləsini necə tərcümə eləyim? Cavabını da məndən qabaq özü dilinə gətirirdi, "sidel kak tcevetok?" Bir dəfə isə soruşdu "özünü yaxşı tutmusan" kəlməsini belə çevirsəm necə olar: "tı sebe xoroşo poymal".

Amma aydındı, o, darıxırdı və bütün bunlar zəngləşmək - ünsiyyət üçün bəhanələr idi.

Ruhun hərarəti - onu necə ölçə bilərsən? Hələ belə bir hərarət cihazı ağla gəlmir. Acı təəssüflə nə qədər gözəl misralar həsr eləyib sevdiyinə;

***Günəş doğacaq, batacaq... ancaq***
***Sevimli simaların sırası***
***Təkrar olunmayacaq...***

O, haqlıdır. Təkrar olunmayacaq.

Sağlığında ona sonetlər həsr etmiş bir çox bakılı cavan şairlər və nasirlər onu "xaç atası" adlandırırdılar.

Şair və redaktor. Bu - hər deyəndə qarşılaşan hal deyil. Amma bu faktın özü də çox şeyi əks etdirir. Redaktor səriştəsi və məntiqi ilə rəssamın xəyali uçuşlarını özündə birləşdirmişdi. Adətən, insanda bu keyfiyyətlərdən biri oıur, hər ikisi yox... O, heç zaman özünə qarşı addım atmadı, özünü günün tələblərinə uyğun xırdalanmağa qoymadı. Daxilindəki müxalifət onu yenilməz elədi.

-Jurnal xoşuna gəlir?

-Yaxşıdır. Amma üz qabığı çox sadədir. Dəftər üzlüyünə oxşayır.

-Bəsdi sən də... kimə bahalı üzlük lazımdırsa, qoy oxumasın. Belədə 100 nəfər oxusa, mənə bəsdi - artıq lazım deyil.

"Jurnal yaratmaq - şəhər salmaq kimidir" - Voznesenskinin sözüdür. Mənə elə gəlir ki, o, bu jurnalın yaradıcısı, qurucusu olmasa da, "Literaturnıy Azerbaydjana" deyəndə həmişə Mənsur yada düşəcək. Necə ki Konservatoriya söyləyəndə Üzeyir Hacıbəyovu xatırlayırıq.

Onun redaktorluq istedadı da mən deyərdim ki, anadangəlmə idi. Belə bir təhsil ocağı yoxdur, axı...

"Qapıları taybatay açmaq lazımdır..." - klassik deyib.

Mənsur da açmışdı. Öz ədəbi düşüncəsindən uzaqlaşmadan, öz zövqünə uyğun tərzdə jurnala materiallar toplayırdı. Zövq isə məlumdur ki, estetik vicdandır. Bu minvalla 90-ıncı illərin amansız dalğalarına da tab gətirdi, dərginin qapısını bağlamadı, özünün redaktorluq missiyasına axıracan sadiq qaldı. Bu elə bir zamandı ki, ölkədə həqiqətən də jurnal yada düşmürdü. Köhnə dayaqlar çökmüşdü, yeniləri isə hələ qurulmamışdı. Belə bir şəraitdə Mənsur yenə də öz işini gördü, öz jurnalını buraxdı. Redaksiyanın heç bir vəsaiti qalmasa da, jurnalın nəşrinə fasilə vermədi. Çünki öz borcunu dərk eləyirdi. Bizim əyalət prinsiplərindən uzaq ziyalı borcunu. Bu mərhələni aşmaq, yaradıcı qüruru saxlamaq çoxlarına müyəssər olmadı.

Belə bir kəlam yadıma düşür: "Əgər işi qarışdırmaq istəyirsənsə, cəhd elə ki, ona başçılıq eləyəsən". Necə deyərlər, yerinə düşən sözdür. Mənə son dərəcə vacib idi ki, ondan sonra kim gələcək, onun təxminən yarım əsr apardığı işi kim davam etdirəcək? Əlbəttə, peşəkar ambisiyalılar çoxdu və bu məni (və bir çoxlarını) həyəcanlandırırdı. Amma mən eşidəndə ki, Mənsur Vəkilovun işini ziyalı bir nəslin nümayəndəsi, onillər boyu Mənsurla çiyin-çiyinə işləmiş Solmaz xanım İbrahimova davam etdirəcək, təbii ki, həyəcana son qoyuldu. Və zaman göstərdi ki, Mənsur Solmaz xanıma etibar etməkdə əsla yanılmayıb. Demək, Baş redaktor hər şeyi görürmüş və dəyərləndirirmiş...

Onunla az ünsiyyət saxladığıma təəssüflənirəm. Və bu qeydlərim də üzrxahlıq - özümə haqq qazandırmaq üçün deyil.

Yalnz bir kərə onun sözündən çıxmışam. Və bu gün bu - mənim aləmimdə ehtiramsızlıqdı.

Zəng vurub xahiş elədi ki, Tofiq Quliyev haqqında yazım - "Başa düşürsən, onun yubileyidi. Yazarsan da bir həftəyə?" "Bacarmaram, Mənsur müəllim, mən onunla görüşməmişəm; siz də mənim xasiyyətimi bilirsiniz; görüşmədiyim insanlar haqqında yazmıram". "Onu bilirəm, amma o, gözəl mahnılar bəstələyib, yubileyində haqqında material verməməyim yaxşı alınmır, sanki günah mənim boynumda qalır".

"Mənsur müəllim, üstəlik mənim gözlərimin də əmması çıxıb, kompüterin arxasında oturan kimi gözlərim bulağa dönür". "Sən qələmlə yaz"- məsləhət verdi. "Bunu da bacarmaram, "Mersedes"dən düşəndən sonra ulağa necə minim? Gözlərim sağalsın, Tofiq Quliyev haqqında da nə isə fikirləşərəm. Amma yenə də inanmıram ki, ona layiq bir yazı alınsın".

Nə isə... Mən onun xahişinə əməl etmədim. Üzülürəm buna görə.

"Sanki nə isə, günah mənim boynumda qaldı".

O, ilk dəfə idi ki, məndən nə isə xahiş edirdi. Mən də rədd etdim.

Amma o, heç vaxt rədd etmirdi. Müftə servis xidməti kimi yaşayırdı - hamıya əl tuturdu. Bir dəfə isə mənə bir təklif elədi:

-Sənin nə problemin varsa, mənə de, əlimdən gələni əsirgəmərəm.

-Oğlumu işə düzəltmək istəyirəm. Bir idarədə maraqlandıq, dedilər ki, rəy - nüfüzlu bir adamın zəmanəti lazımdı.

-Mən verim də...

-Axı, o şair deyil.

-Bəs nəçidi?

- 3D Maksla məşğul olur.

-Nə ilə?

-Qrafika növüdü, kompüterə aiddi.

-İlahi, axı, görəsən, niyə normal insanlardan anormal insanlar gəlir dünyaya?

Məni küçədə oğlumla görəndə nə desə yaxşıdır. “Bu kimdi?”. “Oğlumdu”. “Ola bilməz, bunun saqqalı da ağarıb ki... həqiqətən, sənin oğlundu?” “Hə, mənim oğlumdu, birdən boy atdı”. Bir xeyli mənə və oğluma baxdı, sanki inanmaq istəyirdi və birdən dilləndi: “Bura bax, bəlkə mənə də analıq eləyəsən, axı, mən ondan o qədər də yaşlı görünmürəm”.

Dünya nə qədər əndazədən çıxsa da, Mənsur kimi insanlar çoxlarını məcbur edəcəklər ki, dünya ilə ilişgilərinə yenidən nəzər salsınlar. Gələcək nəsillər onun şəxsiyyətinə, yaradıcılığına və tərcümeyi-halına güzgü kimi baxacaqlar və özlərini yığışdıracaqlar. Çünki bütün zamanlarda nizam-intizama, müdrikliyə, istedada və həssaslığa ehtiyac olacaq. Ola bilsin ki, bu, subyektiv nəzərdi, bundan artıq iddiası olmayan subyektiv düşüncə tərzidi, nə deyim...

-Məni bezdiriblər, Mənsur müəllim, zəng vurub xahiş edirlər ki, özləri haqqında kitab yazdırsınlar. Yeri gəlmişkən, siz yeganə adamsınız ki, bunu məndən rica etməmisiniz, yəqin inanmayacaqsınız - hətta nekroloq da sifariş ediblər... Başa sala bilmirəm ki, mən yalnız sevdiyim insanlardan yaza bilirəm.

-Nekroloq da sifariş veriblər?

-Hə, gələcək nekroloq “qəhrəmanları” növbəyə dayanıblar. Aradabir də zəng vurub soruşurlar: “Yazacaqsan da, Natacan?” Klassikin kəlamı yadınızda olar - “Ölümsüzlüyün birinci şərti ölümdü”...

-Amma mənim haqqımda nekroloqu çatdıra bilməyəcəksən, çünki çox ləng yazırsan.

Təbii ki, gülüşdük.

-Yazmaqdan çox düşünmək vaxt aparır, Mənsur müəllim.

-Mən bunu sezmişəm, bilirəm ki, çox düşünürsən...

Deyirlər qocalıq - məşrutluq sistemi səmimiyyətin yerini tutanda başlayır.

Bəlkə də elə buna görə mən onu qoca kimi təsəvvürümə gətirə bilmirəm.

“Ən çətin poza təbiilikdir”.

Dəqiq yadımda deyil, hardasa oxumuşam ki, insan gerçək olaraq iki ipostasi - ya - yaltaqlıq, ya da müstəbidlik arasında yaşayır. Belə bir nəzəriyyə var; cəmiyyətdə yerdə qalan formalar sui-qəsdə aparır. Mənsur bu sınaqdan da çıxmışdı, kölə doğulanlar var. Tiran doğulanlar kimi. Üçüncü zümrə yoxdur. Daha doğrusu, nadir hallarda doğulur. Bizim Mənsur kimi.

Onun haçansa dostluq etdiyi Rafiq Quliyevin xatirəsinə həsr etdiyim oçerk- nekroloq çox xoşuna gəlmişdi.

-Təbrik edirəm. Mənə çoxlu zənglər gəlib o oçerkə görə. Səmimi alınıb. Yaxşı detallar vurğulamısan.

-Mən vurğulamamışam. Mənim adətim belədir - kimlərləsə yollarım “qeyri-müəyyən” məqamlarda kəsişirsə, qeyd eləyirəm, daha doğrusu, o görüşləri yazıya alıram, surətini çıxardıb saxlayıram.

-Yoxsa, mənimlə görüşlərini də yazıya alırsan? Ya mən “qeyri-müəyyən” deyiləm?

-Yazıram.

-Maraqlıdır, Rafiq haqqında materialın sonunda mən özümu də gördüm, - bilirsən, səninlə danışmaq hardasa təhlükəlidir həm də, gərək sözə sərhəd qoyaq, düşünüb-daşınaq...

O oçerkin son sətirləri belədir: “Telefon yenə səslənəndə dəstəyi qaldırdım. Mənim köhnə xeyirxahım, “Literaturnaya Azerbaydjana” jurnalının Baş redaktoru Mənsur Vəkilovdu: “Necəsən? Nə yazırsan təzə, niyə gətirmirsən?” “Rafiq Quliyev haqqında məqaləni indicə bitirmişəm - heyif ondan, yazıq...” “O, yazıq deyil. Yazıq bizik! Biz hamımız”.

“Onsuz qaldıq”...

İnanmıram ki, bu sözləri söyləyəndə Mənsur müəllim özünü nəzərdə tutsun. Amma keçən sənələr göstərdi ki, biz sənsiz qaldıq, Mənsur müəllim.

O, inanclı insan idimi? Yəqin ki... Amma bu sözün ilkin anlamında yox, Hər dövranın öz Allahı var. Nələr onu əvəz etməyib?! Komintern, inqilab, internasional, demokratik mərkəzləşmə, inkişaf etmiş sosializm. Hələ ayrı-ayrı personallardan danışmıram.

Mənsur ömrü boyu o bir olan Allahına sadiq qaldı. Onun şeirləri də elə bil Yaradanın qüdrətindən nazil olub - sabah duası kimidi.

Yaxşı insanlar çoxdu, müqəddəslər azdı. Sən demə, müqəddəsliyə müxtəlif interpretasiyadan da yanaşmaq olar - içib, hə, gəzib, hə - və eyni zamanda müqəddəs olub. Günahların pərdəsi - qüdsiyyəti, olsa-olsa artıra bilər.

Hamının yaxşı dediyi insanlar o qədər də çox deyil. İncəsənət aləmində mən bu qəbildən iki sima tanıyıram - Üzeyir və Səttar. Onlar müqəddəslərdi. Mənsur mənim aləmimdə üçüncüdü, üçüncü müqəddəsdi.

Geri çəkilib öz yerini başqasına vermək insana məxsus məziyyətdir və təbii ki, bunu insanların çox az bir qismi bacarır.

Yəqin ki, heç zaman unutmayacağam - “Yazıçılar Birliyinin “Yurd” nəşriyyatında, ilkin korrekturadan sonra operatorla birlikdə düzəlişləri qurtarmağa çalışırdıq, bərk isti idi, necə deyərlər, alnımızın təri gözümüzü kor eləmişdi. Qəfildən öz işıqlı təbəssümü ilə astanada, əlində kitabının əlyazmasını tutmuş Mənsur göründü. “Yəqin siz də düzəliş etməyə gəlmisiniz?” Mən bilgisayarın arxasından qalxdım və yerimi ona təklif etdim. “Yox, yox, əyləş, işini gör, mən qonşu otaqda gözləyəcəm”. “Mənsur müəllim, hələ mənim işim çoxdur, xeyli gözləməli olacaqsınız”. “Eybi yox, eybi yox, onda mən sabah gələrəm”. Və getdi.

Nə az, nə çox, saat yarım sonra mən onu nəşriyyatın həyətində görəndə heyrətə gəldim... Sən demə, o, heç getməyibmiş, bayırda gözləyirmiş ki, mən işimi qurtarım. Və həm də həyətdə oynaşan pişik balalarına tamaşa eləyirmiş. Məni görəndə bu körpəciyəzləri nişan verdi: “Onlara yaxşıca tamaşa elədim” - sanki özünə haqq qazandırmaq istəyirdi. - “Hələ onları yedirtmək də lazımdı, acdılar”. Məni bir neçə dəqiqə gözləməsini xahiş eləyib marketə qaçdım. Sonra o, haçandan bəri məni düşündürən suala aydınlıq gətirdi: “Bilirsən bizim oxşar cəhətimiz nədir? Sən də mənim kimi nəcabətli insanları və nəcabətsiz pişikləri sevirsən”.

Onun şeirləri mahiyyətcə millidi və bundan öncə quru şərdən, saxtakarlıqdan - sağalmaz bir naxoşluq olan regionçuluqdan uzaqdı və o, belə şeylərdən əziyyət çəkməyib. Ümumiyyətlə, sənətdə demoqoqluq (əsassızlığın qədim cığırdaşı kimi) ona yaddı. Bu niyyətlə sinəsini qabağa vermək ona lazım da deyildi - çünki onun yaradıcılığı hər şeydən xəbər verir, öz yurduna - yuvasına bağlı olduğunu göstərir.

“Mənim balaca vətənim, sən mənim venamda, damarlarımdasan”.

***Azərbaycan!***
***Alov teşti***
***Qalaların silsiləsi yenilməzdi.***
***Mən səninəm***
***Gecə, gündüz, səhər, axşam***
***Mən sənin külünlə mayalanmışam.***
***İçimdəsən ağız büzən şərab kimi...***
***Yeri gəlib, gərək vurum sarı simə;***
***İstərsən as, istərsən kəs, fərqi yoxdu***
***Təki məni ayrılıqla edam etmə...***

Çılpaq professionallıq burda gücsüzdü - bunu avtomatla tərpətmək olmaz. Sadəcə, onun patriotluğu da özünəməxsusdu.

Bu da Mənsurun sözüdür:

"Mən - azərbaycanlıyam, rus dilində danışan azərbaycanlı, sizə bütün dillərdə danışan bir insan kimi müraciət edirəm".

"Payız, ana..." - onun şeirlərindən biri belə adlanır. Necə də müəllifə ünvanlanıb. "Təntənənin" səbəbkarına.

***Payızın qopartdığı***
***qayın yarpağı kimi***
***uçub toxundum sənə.***
***payızın ətri gəldi,***
***hardasa söndü bir şam...***
***mən Allah qarşısında***
***sizin şəfqətinizlə -***
***bulaq suyundan safam.***

Daha bir peyğəmbərlik, başqa ad verməyə dəyməz.

"sakit bir qızdı - payız - plaşı xışıldayır".

Və bir payız günü də onu bizdən alıb apardı. SONUNCU ƏLYAZMASINI HƏYAT ÖZÜ PARÇALADI. Onun bu fəslə bağlılığına açar salmağa dəyərmi, görəsən?

Səadətin zirvəsi - qəlbin fəthi! Ələlxüsüs ətrafındakılar üçün. Bu da bu sınağın bir təzahürü.

-Gəl yanıma, Natəvan, mənim kitabım çıxıb, sənə bağışlamaq istəyirəm.

-Gələ bilmərəm, Mənsur müəllim, özümü yaxşı hiss eləmirəm, evdəyəm.

-Necə yəni yaxşı hiss eləmirsən? Təsəvvür edə bilmirəm: sən olasan, evdə oturasan? Sən ki, həmişə qaçhaqaçdasan, salamlaşmağa da macal tapmırsan, özündən muğayat ol.

Beş dəqiqə sonra - təkrar zəng:

- Eşit gör nə deyirəm, mən bacım Nailə ilə danışdım, o, kardioloqdu.

- Tanıyıram, Bakıda ən yaxşı ürək həkimidi.

- Orasını bilmirəm, həqiqət budur ki, o, məni bir neçə dəfə ölməyə qoymayıb. Belə danışaq, ona zəng elə, o, sabah səni gözləyəcək - növbəsiz qəbul edəcək. Qələm götür, yaz... - Və o, bacısının həm iş, həm də ev telefonunun nömrələrini diktə elədi.

Sağ olsun Nailə xanımı, məni elə hərarətlə qəbul elədi ki, xəstə olduğumu elə oradaca unutdum. Və axşam zəng eləyib ona öz minnətdarlığımı bildirəndə:

- Bu nə söhbətdi, - məni sözümü bitirməyə qoymadı, - səni ki mən müalicə etməmişəm.

O, yanılırdı. Yadıma dörd diplomlu məşhur "irsiyyəti" ilə Lixaçov düşür. Çünki irsiyyət - yaddaşdı, hər toxunuşda şəbəkəyə qoşulan yaddaş. Qəlb titrəyirsə, onun qoşulmaması mümkünsüzdür. Bəli, o, təbib olmadı, amma təbiblik onun canında-qanında idi. İnsana yaxınlaşan kimi, o dəqiqə hiss olunurdu; gözlərindəki işıqdan, mərhəmət duyğusundan hiss olunurdu. Belə ehtiramla qanı axan yaraya toxunurlar. Bu irsiyyət zaman-zaman oyana-oyana Azərbaycana təbiblər səfi bəxş edib. Amma təbibin nəvəsi - əsil, vergili bir təbibin nəvəsi həkim ola bilməyib. Və küçədən kecən birinin yazısını çap eləyib. Babasının küçədən keçənləri müalicə etdiyi kimi. Müalicəyə görə nəinki xəstələrindən pul almayıb, hətta hərdən onların cibinə dərman pulu da qoyub.

Şeirlə müalicə... Mən onun kitablarını bu niyyətlə oxuyuram. Ömrünü insanlıq yolunda şam kimi əritmiş, amma bağbanı olduğu bu bağın barını dərə bilməmiş bir insanın etirafı... kimi.

O, çoxdan xəstə idi. Hələ ölümündən bir il əvvəl rəfiqələrlə getdim onu yoluxmağa. Qarşımıza uzun, zolaqlı ev xalatı ilə çıxdı. Ev sahibinin dəmlədiyi çay isti deyildi. Söhbət də demək olar ki, alınmadı - onu tez-tez öskürək tuturdu və o, çətinliklə nəfəs alırdı. Biz evdən çıxmağa ona görə tələsirdik ki, o, rahatlıq tapsın. Qapının kandarında, yeldöyəndə o, xəfifcə gülümsədi. Dözə bilmədim, qəhər məni boğdu və rəfiqələrlə pillələri enəndə göz yaşlarımı saxlaya bilmədim.

Onun yaşadığı mikrorayondakı həyətindən gecəyə qovuşan yarpaqların qoxusu gəlirdi.

Rekviyem yazmaq yalnız bəstəkarlara aid iş deyil. M.Vəkilovun "Əlvida, sevimli şəhərim"i rekviyem kimi səslənir və təəccüblüdür ki, duyğuların düzümü maqomayevsayağıdır. Mən onun dünyanı titrədən son mahnısını - Yesenin ruhlu son mahnısını -- "Əlvida, Bakı"nı nəzərdə tuturam.

Ölüm hər birimizin həyatında qaçılmaz hadisədir. Hec kimə qurtuluş yoxdur - nə birinci, nə də axırıncı sırada durana, nə möminə, nə qatilə. Kimi əsla itirmək istəmirsən, bir də görürsən, o, yoxdu.

***Mənim qardaşım!***
***Mənim əziz qardaşım***
***Firavan həyatımız***
***Əgər alt-üst olarsa***
***Mən də kədərlənərdim -***
***Baxıb solan bahara.***
***Yeni yol aramazdım***
***Son mənzildə - məzara...***
***Sən mənə cığır açdın,***
***Orda eycahanlıqdı***
***Baba, nənə uyuyur.***
***Yaxın qohumlar orda***
***Hamısı müntəzirdi***
***Müqəddəsin yoluna***
***Hə, bu da iki dünya:***
***Burada xəstəliklər***
***Orda yoxdur belə şey***

***Orda heç kim bilmir ki,***
***Nədən eləsin giley.***
***Elə sən də susursan.***
***Belə cavan yaşında.***
***Tənha ulduz bərq vurur,***
***Mərmər sinə daşında...***

Mənə elə gəlir, Mənsur bu şeiri mənim haqqımda yazıb - qardaşım Rövşən Mənsurdan üç ay sonra dünyasını dəyişdi. O, Mənsurdan xeyli cavandı. Yadımdadır, mənə zəng elədi və mütəəssir halda dedi: "Mənsur rəhmətə gedib. Mütləq getmək lazımdı. Mən sistem altındayam, gedə bilmərəm... Alınsa, qırxında gedərəm". Alınmadı.

Uzun ilin ölüm biçini amansızcasına öz təntənəli yürüşünü davam etdirir. Bir-birinin ardınca qapımızı acı xəbərlər döyür. Daha nə etməli? Ölüm biçinçisi üçün növbə yoxdur.

Bu yazını da gecikdirirdim. Gözlədim ki, yaralar qaysaq bağlasın.

Mənim üçün dəhşətli idi: Mənsuru, Müslümü, əkiztayı qardaşımı apardı. Hələ Neftçilər xəstəxanasının baş həkimi Fəxrəddin Cavadova da qıydı... Gör bir necə kişilər itirdik! Yaradıcılıq sferaları nə qədər fərqli olsa da, - şair, müğənni, həkim, alim - onları başlıca bir amil birləşdirirdi ki, adına KİŞİLİK deyirlər. Bu adı çoxlarınamı yaraşdırmaq olar?

AYB-nin Xaqani küçəsindəki binasında əsaslı təmir başlandı və təmir olunmuş kabinetində oturmaq ona qismət olmadı.

Pilləkənlərlə onun yanına qalxıram, aha, bir döngə, daha bir keçid və nəhayət, Mənsurun "mansarda"kı otağı. Sözlərin sinxron kəsişməsi məni heyrətə gətirib: "Mənsurun mansardı". İstəyirəm bu barədə ona çaparaq nə isə söyləyim. Və birdən həqiqətin zərbəsinə tuş gəlirəm. Onun, artıq bu dünyada olmadığına inanmaq istəmirəm. Bir anlığa ayaq saxlayandan sonra pillələrə ağır-ağır ayaq basıram.

Hə, bu da onun kabineti. Qapıya toxunmağa qolum qalxmır. Hər şey mənə yad görünür. Xüsusən də təmirdən sonrakı cah-cəlal. Nə isə bu yeniliklərə sevinməyə mane olur. Amma nə? Onun yoxluğu... Təmir divarlardakı əski boyaları silib aparıb, ətraf inanılmaz dərəcədə dəyişib. Dərhal başa düşmədim ki, bu təmir mənim həyatımdakı izləri də silib, bu dəhlizlə bağlı izləri; gəlişimi, gedişimi, qarşılanmalarımı. Və o uçuq-sökük kabinet üçün qəribsədim. O kabinet ki, orda Mənsur müəllifləri - o cümlədən məni öz evindəki kimi qarşılayırdı. Qonağına qarşı qəlbən sevinirdi: "Gətir, Natul, nə yazmısansa, hamısını gətir".

Aydın düşüncədən sonra qapı önündə məni saran üşütmə, bu sözü bütöv insanı bir daha eşitməyəcəyimlə - onun yoxluğunu dərk etməyimlə bağlı idi.

O, bir daha məni bu qapıda qarşılayıb kabinetə dəvət etməyəcək. O - o böyük insan, Mənsur Vəkilov adlı-soyadlı o şəxsiyyət.

"Lit.Az"da nəşr olunmuş yazılarımı saymağa tənbəllik etmirəm. Bu - on üçüncüdür. Mən rəqəmlərin "düşər-düşməz"liyinə inanıram, amma onun yoxluğuna yox.

...İlk dəfə nömrəyə gedən bir yazını oxumayacaq. Mənim gətirdiyim yazını.

Mənə bağışladığı kitabların birində beş dildə şeirləri toplanıb və elə buna görə də onu təbrik etdim. "Bu nə böyük qəhrəmanlıqdır ki?" - dedi, - mən eşitmişəm sən öz "Alim Qasımov"unu yeddi dilə çevirtdirmisən".

Kitab sevdası ilə bağlı daha bir haşiyə:

- Gəl redaksiyaya, sənə kitab bağışlamaq istəyirəm, sonuncu kitabımı (həqiqətən, sonuncu kitabı oldu). Sənə yaxşı bir avtoqraf, qəlbimdən gələn sözləri yazmaq istəyirəm, bunun üçün də mən gərək səni görəm...

- Mənsur müəllim, hər şeyi nəzərə alın, diqqətli olun, "mələyim, tərlanım, tüləyim" yeri deyil, mənim ərim var.

- Onu mən bilirəm, bilirəm var, hər halda, gəl...

...Getməməyimə peşmanam. Biz həmişə öz şıltaqlığımızın təsiri altında olmuruq - daha vacib, təxirəsalınmaz işlər çıxır və s. Avtoqraflı kitabı götürməyə isə, başqa bir həftədə də getmək olardı, kitab qaçmayacaqdı ki... Bax, belə, tələskənlikdən sabahın, gələcəyin çağırışını nəzərə almayıb günaha batırıq. Cinayətkarcasına günah törədirik. Bu da nəticəsi - onun son kitabı məndə yoxdur.

Mən çox istərdim ki, o, mənim bu sözlərimi mənim dilimdən eşitsin:

***O necə***
***Səslənir***
***ünsüz,***
***Səssiz gecədə...***

Deyəsən, tamamilə həmin epizoddu, bizim "görüş zəncirimizin" finalı, sonu olan epizod.

"Kapital bank"da soyad uyğunsuzluğuna görə mənə qonorar vermədilər: şəxsiyyət vəsiqəsindəki soyadımla, jurnalda gedən soyadım üst-üstə düşmürdü. İl ərzində beş dəfə banka ayaq döydüm - heç bir faydası olmadı. Ona zəng vurdum. Məsələni anlatdım. "Allah onlara insaf versin" dedi, onlar hamısı hərfgüdən, pedantdılar". "Gəl sabah birlikdə gedək banka, mən onlara deyim ki, Natəvan Faiqqızı da, Natəvan Mustafayeva da bu xanımdı". Dərhal cavab verdim: "Xeyri olmayacaq, Mənsur müəllim, tanınma üçün, hətta anamı da apardım banka, nəzərə almadılar".

Ölümündən bir neçə gün qabaq ondan zəng gəldi: "Eşit, gör nə deyirəm, Natul, sənin haqqında mən möhürlü arayış hazırlayıb verdim Yeganəyə - o, bizim əməkdaşdı, gəlib ondan götürərsən, gedib qonorarını alarsan".

Onun imzaladığı həmin arayış mənim üçün avtoqrafdı. Həm də tarixdi. Bizim sonuncu tariximiz.

Nekroloq yazmağa yubandım. Qırxına da gedə bilmədim, ilinə də.

Öz astagəlliyimə qol çəkirəm.

"Sən həddindən artıq ləng yazırsan".

O, öz təxminində yanılmadı və heç vaxt da yanılmırdı...

Bax, Mənsur, budur!

***Natəvan FAİQQIZI***

***Rus dilindən çevirən:***
***Məmməd ORUC.***